# "Gulfstream Aerospace" şirkəti Azərbaycan ilə gələcək əməkdaşlıqda maraqlıdır

## Prezident İlham Əliyev "Gulfstream Aerospace" şirkətinin prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də "Gulfstream Aerospace" şirkətinin prezidenti Mark Börnsü qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Mark Börns sonuncu dəfə ölkəmizdə 20 il əvvəl olduğunu deyərək, bu səfəri zamanı Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını vurğuladı.

O, ölkəmizin iqtisadi inkişafını yaxından izlədiyini dedi və Azərbaycanda istismar olunan "Gulfstream" təyyarələrinin, həmçinin Bakıya gəldikdə hava limanında gördüyü təyyarələrin sayını iqtisadi inkişafımızın yaxşı nümunəsi kimi qiymətləndirdi. Mark Börns Azərbaycan ilə gələcək əməkdaşlıqda maraqlı olduqlarını bildirdi.

"Formula-1" Azərbaycan Qran-prisinin keçirilməsini qeyd edən qonaq bu yarışların Bakı trasının dünyanın ən maraqlı traslarından biri olduğunu dedi.

Söhbət zamanı Azərbaycanın iqtisadi potensialının və coğrafi mövqeyinin mülki aviasiyamızın gələcəkdə daha da inkişafı üçün əhəmiyyətli rol oynadığı vurğulandı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycan.- 2024.- 14 sentyabr (№200).- S.1.